Respublika .- 2025.- 10 avqust(№166).- S.13.

# Sülh müqaviləsinin mətni Azərbaycanın irəli sürdüyü şərtləri təsdiq edib

**Ağ Evdə Prezident Donald Trampın iştirakı ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən görüşdə regiona üç onillikdən sonra sülh, sabitlik və firavanlıq gətirəcək tarixi sənəd - Birgə Bəyannamə imzalandı. Vaşinqton formatı da regionda diplomatik balansın dəyişməsi deməkdir.**



**Pərvanə VƏLİYEVA,**
**Milli Məclisin deputatı.**

Donald Donald Tramp qeyd etdi ki, bir çox dövlət, təşkilat, rəhbər bu iki ölkə arasında sülhə nail olunmasına çalışıb: ATƏT, Avropa İttifaqı, "yuxulu" Bayden. Ancaq heç bir dövlət, qurum, heç bir Ağ Ev rəhbəri bu sülhdə vasitəçi olmağa və bunu həqiqətən gerçəkləşdirməyə nail ola bilməyib.

Görüşdə diqqətçəkən məqamlardan biri sülhə nail olunmasında oynadığı böyük rolun və dəstəyin qarşılığı olaraq, ona ehtiram əlaməti olaraq, Trampın Prezident İlham Əliyev tərəfindən səsləndirilən təkliflə Nobel Sülh mükafatına namizəd kimi göstərilməsi oldu. Dövlət başçımızın təklifi əsasında Ermənistanla birgə mükafat komitəsinə müvafiq məktubun ünvanlanacağı bəyan edildi. Ən mühüm məqam isə odur ki, "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş" artıq xarici işlər nazirləri səviyyəsində paraflanıb. Bu, mətn üzərində razılığın əldə olunması deməkdir, lakin imzalanma və ratifikasiya hələ qarşıdadır.

Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyanın Birgə Bəyannaməni imzalaması ABŞ Prezidentinin isə buna şahidlik etməsi beynəlxalq legitimlik baxımından tarixi dönüş nöqtəsi idi. Bu, çox böyük diplomatik irəliləyişdir. Bəyannamədə Naxçıvana maneəsiz keçidin təmin edilməsi xüsusi vurğulanır. Bu isə Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı "Zəngəzur dəhlizi açılacaq" diktəsinin reallaşmasıdır. Zəngəzur yolunun maneəsiz keçid olaraq açılması və dünya lideri Trampın bu yola qarant olması üç ölkə, region üçün, hətta Asiya və Avropa üçün yeni dividendlər gətirəcək. Birgə Bəyannamə ilk növbədə "qarşılıqlı fayda" prinsipinə əsaslanır, bu isə hər iki tərəfin siyasi cəhətdən qəbul edə biləcəyi formul kimi görünür.

"Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" adlı bağlantı layihəsi yeni diplomatik brenddir, adın birbaşa Donald Tramp ilə bağlanması onun prosesdə zəmanətçi olmasını simvolizə edir. Hesab edirəm ki, bu, həm siyasi, həm də infrastruktur xarakterli nəhəng bir layihədir və iqtisadi cəhətdən çox böyük potensiala malikdir. Bu isə ilk növbədə, Azərbaycan xalqının sosial müdafiəsinin möhkəmləndirilməsinə, insanların rifah halının daha da yaxşılaşdırılmasına xidmət edəcək.

Bəyannamə beynəlxalq sərhədlərin toxunulmazlığı, güc tətbiqi ilə ərazi əldə etmənin yolverilməzliyi kimi prinsipləri ehtiva edir. Bu prinsiplər dövlətlərin bir-birinin suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərin toxunulmazlığının tanınması, bir-birinə qarşı ərazi iddiası ilə çıxış etməmək, bir-birinə qarşı güc tətbiq etməmək, güc tətbiqi ilə hədələməmək, sərhədlərin demarkasiyası və delimitasiyası, diplomatik münasibətlərin qurulması və kommunikasiyaların açılmasıdır.

Azərbaycan xalqı həmin tarixi anları izləmək üçün ayaqda idi. Donald Trampa ölkə rəhbərinin uzun illərdir ki, ədalətli sülhü gözləyən Azərbaycan xalqı adından da təşəkkürü əlamətdar oldu. Vaşinqton bu mərhələdə yalnız vasitəçi deyil, həm də prosesin uğuruna siyasi kapital qoyan tərəf mövqeyindədir. Bu, həm də ABŞ-ın Cənubi Qafqaz siyasətində yeni mərhələnin başlanğıcını qoydu. ■